# Naxçıvan Muxtar Respublikasında şəhidlərin əziz xatirəsi ehtiramla yad olunub

**Naxçıvan Muxtar Respublikasının müxtəlif rayon və şəhərlərində şəhidlərimizin xatirəsinə həsr olunmuş anım tədbirləri keçirilib.**

**Anım mərasimlərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, yerli icra hakimiyyətlərinin nümayəndələri, Daxili İşlər Nazirliyinin, Dövlət Sosial Müdafiə Fondunun, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Əlahiddə Sərhəd Diviziyasının hərbçiləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.**





Tədbirlər Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, məzarlar ziyarət olunub, gül dəstələri düzülüb, dualar oxunub. Çıxışlarda Vətən uğrunda canından keçən qəhrəman oğullarımızın igidlik və fədakarlığından, onların şərəfli döyüş yolunun gənclər üçün örnək olduğundan bəhs olunub. Məktəblilər vətənpərvərlik mövzusunda şeirlər səsləndiriblər.

**Şəhid Rauf Qurbanov və şəhid Sərxan Salahovun anım günü Şərurda keçirilib.**



Şəhidlər Qurbanov Rauf Vahid oğlu və Salahov Sərxan Həsənqulu oğlunun anım günləri münasibətilə Şərur rayon Şəhidlər Xiyabanında anım mərasimi təşkil edilib.

Çıxış edənlər qəhrəman şəhidlərin döyüş yollarından, torpaqlarımızın azadlığı uğrunda göstərdikləri igidlikdən danışıblar, onların ailələrinə səbir və dözüm arzulayıblar.

*Qeyd edək ki, şəhid leytenant Rauf Qurbanov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə, şəhid Sərxan Salahov isə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.*

**Babəkdə qəhrəman gizir Ümid Novruzlunun xatirəsi ehtiramla yad edilib.**



Babək şəhərində Vətən müharibəsi şəhidi, gizir Ümid Bahadur oğlu Novruzlunun xatirəsi dərin hörmətlə anılıb.

Babək Rayon İcra Hakimiyyətinin başçısı Ovni Muradov çıxışında bildirib ki, Vətən uğrunda canından keçən qəhrəmanların şücaəti xalqımızın qürur mənbəyidir. İcra başçısı Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğının bu istiqamətdə dövlət siyasətinin əsas prinsiplərindən biri olduğunu vurğulayıb.

Çıxışlarda gizir Ümid Novruzlunun döyüş yolundan, vətənpərvərliyindən və göstərdiyi qəhrəmanlıqdan danışılıb.

Şəhid Ümid Novruzlu 7 iyun 1992-ci ildə Babək qəsəbəsində anadan olub, 2020-ci il noyabrın 7-də Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

*Prezident İlham Əliyevin sərəncamları ilə o, ölümündən sonra "3-cü dərəcəli Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.*

Şəhidin Bahadur adlı oğlu və Nilay adlı qızı yadigar qalıb.

**Şahbuz rayonunda şəhid mayor Elşən Orucovun xatirəsi anılıb.**

Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış şəhid mayor Elşən Yavər oğlu Orucovun anım günü doğulub boya-başa çatdığı Ayrınc kəndində, müqəddəs məzarı önündə qeyd olunub.

Mərasimdə rayon ictimaiyyətinin nümayəndələri, şəhidin ailə üzvləri, hərbçilər, polislər, kənd sakinləri və məktəblilər iştirak ediblər.

Çıxış edənlər şəhid mayor Elşən Orucovun qəhrəmanlıq yolundan, döyüşlərdə göstərdiyi igidlikdən bəhs ediblər. Qeyd olunub ki, belə mərd vətən övladlarının xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq və onların qəhrəmanlığı gənc nəsil üçün örnəkdir.

Tədbirdə məktəblilər şəhidlərə həsr olunmuş şeirlər səsləndirib və onların xatirəsini dərin ehtiramla yad ediblər.



*Orduda göstərdiyi xidmətləri hər zaman ölkə başçısı tərəfindən qiymətləndirilən, xidməti dövründə "Qüsursuz xidmətə görə" III dərəcəli, "Qüsursuz xidmətə görə" II dərəcəli medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif olunan mayor şəhadətindən sonra da "Vətən Uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.*

**Naxçıvanda şəhid leytenant Vəli Quliyevin anım mərasimi keçirilib.**

Naxçıvanda 44 günlük Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhid olan leytenant Vəli Quliyev ehtiramla yad edilib.

Çıxışlarda şəhidin Füzuli və Cəbrayıl istiqamətlərində gedən döyüşlərdə göstərdiyi qəhrəmanlıqdan bəhs edilib, onun igidliyinin gənclər üçün örnək olduğu vurğulanıb. Məktəblilər Vətən və şəhidlərə həsr olunmuş şeirlər səsləndiriblər.



*Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Vəli Quliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "İgidliyə görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.*

**Culfada şəhid Şamil Babayevin anım tədbiri keçirilib.**



Şəhidin məzarı ziyarət olunub, üzərinə tər çiçəklər düzülüb, ruhuna dualar oxunub.

Tədbirdə çıxış edənlər Vətən müharibəsində canlarını torpaqlarımızın azadlığı uğrunda qurban verən qəhrəman oğullarımızın şücaətindən söz açaraq, onların keçdiyi şərəfli döyüş yolunun gənc nəslə örnək olduğunu bildiriblər. Qeyd olunub ki, şəhidlərin əziz xatirəsi xalqımızın qəlbində daim yaşayacaq.

Qəhrəmanımız Füzuli və Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak edərək yüksək peşəkarlıq və fədakarlıq nümayiş etdirib, 8 noyabr 2020-ci ildə - Zəfər Günündə Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

*Kapitan Şamil Babayev göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Zəfər" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.*

**Şahbuz rayonunda şəhid İman Alməmmədovun xatirəsi yad edilib.**

Şahbuz rayonunun Kolanı kəndində Vətən müharibəsi şəhidi İman Alməmmədovun əziz xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.

Çıxış edənlər şəhidin keçdiyi şərəfli döyüş yolundan, göstərdiyi qəhrəmanlıqdan və vətənpərvərlik nümunəsindən danışıblar. Qeyd olunub ki, İman Alməmmədov 17 may 1999-cu ildə Şahbuz rayonunun Kolanı kəndində anadan olub. O, orta təhsilini Kolanı kənd və Babək rayonunun Vayxır kənd məktəblərində alıb. Hərbi xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi ordu sıralarında xidmətini davam etdirib.

Şəhid İman Alməmmədov 9 noyabr 2020-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidliyə görə Prezident İlham Əliyevin sərəncamları ilə o, ölümündən sonra "Vətən uğrunda" medalı, "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları və "Vətənə xidmətlərə görə" ordeni ilə təltif edilib.*

**Naxçıvan şəhərində ölümsüz qəhrəman Xansu Qurbanovun məzarı başında anım tədbiri keçirilib.**

Çıxış edənlər şəhidin həyatı və döyüş yolundan danışıblar. Vətən müharibəsi zamanı ön sıralarda döyüşən Xansunun "Ölümsüz" ləqəbi ilə könüllərdə taxt qurduğu vurğulanıb.

Xansu Elsevər oğlu Qurbanov 2000-ci ilin sentyabrın 23-də Cəhri kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra həmin ilin oktyabrın 1-dən 2020-ci ilin aprel ayına kimi Naxçıvanın N saylı hərbi hissəsində xidmət edib. Hərbi xidmətini bitirsə də Vətənə sevgisi, düşmənə nifrət hissi ilə yaşayan Xansu sənədlərini hazırlayıb hərbi hissəyə təqdim edir və Naxçıvan Xüsusi Təyinatlıların dəstəsində kəşfiyyatçı olaraq təlimlərə başlayır. Qorxmazlığı, çevikliyi və dəqiqliyi ilə seçilən Xansu Vətən müharibəsi başlandıqda 2020-ci il oktyabrın 6-da polkovnik Tehran Mənsimovun rəhbərliyi altında müharibəyə yollanan ilk könüllülər dəstəsində olub.

2020-ci il noyabrın 8-i Şuşa şəhəri azad edilir. Səhərisi gün müharibənin dayanmasına saatlar qalmış Xansu şə-



hidlik zirvəsinə ucalır.

Bu savaşa sonunu düşünmədən, vətən torpaqlarını işğaldan azad etmək üçün yollanan qəhrəman ölümündən sonra Azərbaycan Redpublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Şuşanın azad olunmasına" görə medalları ilə təltif edilib.

Tədbirlərin sonunda iştirakçılar şəhidlərin xatirəsini bir daha ehtiramla yad edib, onların ailələrinə səbir və dözüm arzulayıblar.

Qəhrəman şəhidlərimizin əziz xatirəsi xalqımızın yaddaşında daim yaşayacaq.

***Bəxtiyar ƏLİYEV***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***
***Naxçıvan Şəhid Ailələri İctimai Birliyinin mətbuat katibi***